# ƏHALİNİN DEMOQRAFİK GÖSTƏRİCİLƏRİNİN STATİSTİK TƏDQİQİ

İstənilən dövlətin əsas demoqrafik və ictimai-iqtisadi xarakteristikalarından biri əhalinin yaş strukturudur. Yaş strukturunun göstəriciləri əhali artımının tədqiqatı və proqnozlaşdırılmasının, əhali sayının və onun müxtəlif qruplarının mütənasibliyinin perspektiv hesablamalarının, xəstəliklər və ölüm səbəblərinin qanunauyğunluqlarını müəyyən etmək üçün əhəmiyyətlidir. Yaş strukturu əhalinin təkrar istehsalının tipini, iqtisadi fəal əhalinin ümumi əhalidə xüsusi çəkisini müəyyənləşdirir, habelə ölkənin hərbi potensialı haqqında və sosial siyasətin formalaşmasında, cəmiyyətin iqtisadi və sosial infrastrukturunun ən əhəmiyyətli göstəricilərinin planlaşdırılmalarında lazım olan bir sıra məlumatlar haqqında təsəvvür yaradır.

Cinslə yanaşı yaş insanın ən əhəmiyyətli demoqrafik xarakteristikasıdır. O, insanın həyatında dünyaya gəlişindən bu və ya digər ana qədər müəyyən bir dövrü ifadə edir. Yaş – tamam olmuş illərlə, körpə uşaqlar üçün isə tamam olmuş aylarla və ya günlərlə ölçülür. Xronoloji yaş insan həyatında bütün əsas hadisələrlə bağlıdır – məktəbə daxil olmaq, işə düzəlmək, nikaha girmək və sairə. O, bizim ömrümüzə həyatın dövrləri formasını verərək mərhələlərə bölür. İnsanın yaşı ilə sağlamlıq vəziyyətində, ailə vəziyyətində, əmək məhsuldarlığında və peşəkar karyerada, istehlak həcmində və strukturunda, bilik və yığılan təcrübədə dəyişikliklər baş verir. Əlbəttə, bioloji amillər insanların həyati dövrlərinin formalaşmasında mühüm rol oynayır. Lakin o, qəti şəkildə sosial şəraitin təsiri altında formalaşır. Cəmiyyətdə müxtəlif yaş qrupları üçün formal (məsələn, məktəb və pensiya yaşı) və qeyri-formal (məsələn, əmək fəaliyyətinə başladığı yaş və ya uşaqların dünyaya gəlməsi) normalar müəyyən edilir ki, bu da sosial gözləmələr əsasında insanların müəyyən yaşda davranışını nizama salaraq onun nə etməli olduğunu tənzimləyir. Bu normalar yaş strukturunun dəyişikliyi ilə və ömür uzunluğunun artması ilə birlikdə dəyişir.

Aydın görünür ki, müəyyən bir yaşda adamların sayının və ümumi əhali sayında onların payının dəyişməsi müxtəlif ictimai-iqtisadi və demoqrafik nəticələrə gətirib çıxarır. Belə ki, gənclərin sayının artmasının ardınca doğulan uşaqların sayında artım müşahidə olunur. Bu isə öz növbəsində yeni doğulanların sayının artması uşaq mallarına və xidmətlərə tələbatı yüksəldir. Əks "demoqrafik" tərəf isə doğum sayının ümumi səviyyəsinin azalması və ümumi ölüm göstəricisinin artımıdır. Uzunmüddətli perspektivdə yaş tərkibində belə dəyişikliklər ictimai təminatın və istehsal strukturlarının bütün sisteminin yenidən qurulmasına səbəb olacaq.

Hər halda, yaş strukturu haqqında informasiya yalnız demoqraflar tərəfindən deyil, həm də xalq təsərrüfatının sahələrinin və ayrı-ayrı müəssisələrin, ərazilərin (regionların) inkişaf strategiyalarını hazırlayan praktik-idarəçilər (menecerlər) tərəfindən tələb edilir.Yaş qruplarına və yaş kontingentinə görə əhalinin bölgüsü yaş strukturu adlanır. Bir qayda olaraq, əhali birillik və ya beşillik yaş qruplarına bölünür, amma tədqiqatın hədəflərindən asılı olaraq başqa qruplaşmalar da mümkündür. Əhalinin birillik yaş qrupları üzrə bölgüsü yaş strukturunda dəyişikliklərin və ümumilikdə vəziyyətin tədqiqatı üçün ən yaxşı imkanlar yaradır. Oxşar sosial-demoqrafik xarakteristikalarla bir və ya bir neçə yaş qrupları üzrə əhalinin məcmusu yaş kontingenti adlanır. Belə ki, reproduktiv kontingent –15 yaşdan 50 yaşa qədər qadınlar, seçicilərin kontingenti – 18 yaşdan yuxarı əhali, əməkqabiliyyətli kontingent – kişilər üçün 16 yaşdan 63 yaşa qədər, qadınlar üçün isə 16 yaşdan 60 yaşa qədər olanlardan ibarətdir. Kişilərin və qadınların sosial və demoqrafik funksiyalarındakı fərqlərə görə əhalinin yaş strukturu cinsə görə struktura müvafiq olaraq nəzərdən keçirilir, buna görə, adətən əhalinin yaş-cins strukturu haqqında danışılır. Yaş strukturuna başqa nöqteyi-nəzərdən də baxmaq olar. Eyni bir ildə və ya bir neçə yanaşı ildə doğulmuş nəsillərin nümayəndələrini hər bir yaş qrupu birləşdirir.

Beləliklə, əhalinin müəyyən bir tarixə (məsələn, ixtiyari bir ilin 1 yanvar vəziyyətinə) yaş bölgüsü əhalinin təvəllüdə görə bölgüsünü əks etdirir, yəni cəmiyyətin nəsil strukturunu göstərir. Öz növbəsində nəsillərin arasındakı nisbətlərin kəmiyyətcə tədqiqi sosial proseslərin inkişafının xüsusiyyətlərini daha yaxşı anlamaq üçün imkan yaradır.

Yaş strukturunun kəmiyyətcə tədqiqi üçün bir neçə göstərici qrupundan istifadə olunur. Birincisi, bu təyinə uyğun olaraq, birillik və beşillik yaş qruplarının, yaş kontingentlərinin mütləq və nisbi xarakteristikalarıdır.

İkincisi, bu ayrı-ayrı yaş qruplarının arasında hər iki cinsə görə xüsusi olaraq hesablanan nisbətlərdir.

## Əhali sayının yaş qrupları üzrə bölüşdürülməsi

Məşhur statistik və demoqraf Sandberq əhalinin yaş strukturuna görə üç tipə ayırmağı təklif etmişdi: proqressiv, reqressiv və stasionar.

Əhalinin proqressiv yaş strukturu (sinonim: əhalinin proqressiv tipi) — əhalinin yaş strukturunda 0-14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi (faizlə) 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisindən (faizlə) böyükdürsə, bu zaman əhalinin sayca artması təmin edilmişdir.

Əhalinin reqressiv yaş strukturu (sinonim: əhalinin reqressiv (geriləyən) tipi) — əhalinin yaş strukturunda 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi 0-14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisindən böyükdürsə, o zaman gələcəkdə əhalinin sayının ixtisarı təhlükəsini gözləmək lazımdır.

Əhalinin stasionar yaş strukturu (sinonim: əhalinin stasionar tipi) — əhalinin yaş strukturunda 0-14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisinə bərabərdirsə, bu əhali sayının sabitləşməsinə şərait yaradır.

2010-2015-ci illər 1 yanvar vəziyyətinə Azərbaycan Respublikası əhalisi haqqında olan məlumatlarından istifadə edərək hesablamaların nəticəsi olaraq əhalinin proqressiv tipli olduğu müəyyən edilir, bu zaman isə ölkə əhalisinin sayca artması təmin edilmişdir. Bu hesablamaların nəticəsi Cədvəl 1-də, qrafiki isə Şəkil 1-də verilmişdir.

**Cədvəl 1**

**2010-2016-cı illərin 1 yanvar vəziyyətinə Azərbaycan Respublikasında əhali göstəricilərinin tipləri üzrə müəyyən edilməsi**

| Göstəricinin adı | İllər | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
| Əhalinin ümumi sayı (min nəfərlə) | 8997,6 | 9111,1 | 9235,1 | 9356,5 | 9477,1 | 9593,0 | 9705,6 |
| 0-14 yaşda əhalinin sayı (min nəfərlə) | 2030,9 | 2032,5 | 2052,5 | 2087,0 | 2118,6 | 2152,7 | 2186,8 |
| 50 və yuxarı yaşda əhalinin sayı (min nəfərlə) | 1648,3 | 1745,2 | 1834,1 | 1922,8 | 2014,2 | 2100,8 | 2190,0 |
| 0-14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi (faizlə) | 22,6 | 22,3 | 22,2 | 22,3 | 22,4 | 22,4 | 22,5 |
| 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi (faizlə) | 18,3 | 19,2 | 19,9 | 20,6 | 21,3 | 21,9 | 22,6 |

Belə ki, 2010-cu ildə 0-14 yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi 22.6-ya, 50 və yuxarı yaşda əhalinin ümumi əhaliyə nisbətən xüsusi çəkisi isə 18.3-ə bərabərdir. Buradan aydın görünür

ki, əhalinin yaş strukturunun tipi proqressivdir. Bu tendensiya 2016-cı ilə qədər davam edir. 2016-cı ildə bu göstərici 0-14 yaş qrupundakı əhali üçün 22.5-ə, 50 və yuxarı yaşda əhali üçün 22.6 qiymətini almışdır. Bu isə ölkə əhalisinin reqressiv tip mərhələsinin qarşısında ola biləcəyinin xəbərdarlığı deməkdir.




**Şəkil 1. Azərbaycan Respublikasında əhali göstəricilərinin tiplər üzrə müəyyən edilməsi qrafiki**

Əhalinin yaş strukturunun demoqrafik təhlilini aparmaq üçün, həmçinin aşağıdakı göstəricilər də nəzərdən keçirilir.

*Demoqrafik asılılıq* əmsalları adı altında olan göstərici ən çox maraq doğurandır. Bu göstərici əmək qabiliyyəti olmayan əhalinin əmək qabiliyyətli əhaliyə yükünü göstərir.

*Ümumi demoqrafik asılılıq əmsalı* əmək qabiliyyətli yaşda olan əhalinin sayına qocaların və uşaqların sayının cəminin nisbəti kimi təyin edilir. Bir qayda olaraq, bu nisbət 100-ə və ya 1000-ə vurulur.

Göründüyü kimi, ümumi demoqrafik asılılıq əmsalı uşaqların və yaşlı əhalinin asılılıq əmsallarının cəminə bərabərdir.

Demoqrafik asılılıq göstəricisinə əks olan göstərici *demoqrafik dəstək* adlanır. Bu isə neçə nəfər əmək qabiliyyətli yaşdakı şəxsin əmək qabiliyyəti olmayan bir nəfəri dəstəkləməsini (himayə etməsini) göstərir.

Daha bir göstərici: *qocalma indeksi* – uşaqların sayına qocaların sayının nisbəti kimi hesablanır. Bu göstərici demoqrafik qocalmanın dərəcəsini qiymətləndirmək üçün istifadə olunur.

Son 50 ildə "demoqrafik qocalma" anlayışı demoqrafiyada və statistikada ümumi olaraq qəbul olunmuşdur. Bu göstərici əhali strukturunda dəyişkən kəmiyyət kimi üç əsas dövrlərdə təhlil edilir:

1. reproduksiyaya qədər;
2. aktiv fəaliyyət;
3. reproduksiyadan sonra onun ardınca gələn aktiv fəaliyyətin dayandırılması [3].

Adətən demoqrafik qocalma göstəricisi polyak demoqrafı E. Rosset tərəfindən təklif edilmiş metodikaya əsaslanır və ingilis demoqrafı C. Sandberqin cədvəli üzrə qiymətləndirilir. Edvard Rossetin təsnifatına görə qocalığın kandarının hüdudlarından kənar yaş olaraq 60 yaş qəbul edilmişdir. 60 yaş və ondan yuxarı yaşdakı əhalinin bütün əhalidə payı 8 %-dən az olan ölkələr demoqrafik "gənc" ölkə hesab edilir. Bu qrupdakı əhalinin payı 8%-dən 12 %-ə qədər tərəddüd edirsə, bu vaxt deyilir ki, ölkə "qocalığın astanasındadır". Əgər bu göstəricinin aldığı qiymət 12 % və daha yüksək olarsa, onda həmin ölkə demoqrafik "qoca" sayılır.

Sonuncu qrupda, yəni bu göstərici 12%-dən yüksək olarsa, o zaman ölkələr arasında demoqrafik qocalığın səviyyəsinin hüdudu bu şəkildə müəyyənləşdirilir: ahıl və qoca insanların payı 12 %-dən 14%-dək təşkil edərsə, ölkələr "qocalığın başlangıc səviyyəsinə"; "qocalığın orta səviyyəsinə" – 14%- 16 %; "qocalığın inkişaf etmiş səviyyəsinə" – 16%-18 % və " qocalığın çox

yüksək səviyyəsinə" - 18 %-dən yuxarı olarsa aid olur.

Mütəxəssislərin fikrincə, son onillikdə qocalığın daha bir mərhələsinin araşdırılmasına ehtiyac yaranmışdır, bu "dərin demoqrafik qocalıq" mərhələsidir, bu zaman 60 və ondan yuxarı yaşda əhalinin ümumi əhalinin sayında xüsusi çəkisi 15 %-i ötür.

Cefri Sandberq cədvəlinə müvafiq olaraq üç əsas yaş qrupunda dəyişikliklər böyük əhəmiyyət kəsb edir: 0 – 19 yaş, 20 – 59 yaş, 60 yaş və ondan yuxarı yaş.

Birinci qrupa aid əhalinin ümumi əhalinin sayında xüsusi çəkisi 30 %-dən az, üçüncü qrupa aid əhali sayının isə xüsusi çəkisi 15 %-dən çox olarsa, o zaman demoqrafik qocalıq başlayır.

Beləliklə, cəmiyyətin demoqrafik qocalmasının əsas göstəricisi 19 yaşa qədər və 60 yaşdan yuxarı yaş qruplarında əhali sayıdır.

1959-cu ildə BMT-nin demoqrafiya şöbəsinin ekspertləri qocalma proseslərinin ölçülməsi üçün 65 yaşı sərhəd olaraq qəbul etdilər və əhalinin demoqrafik strukturunu xarakterizə edən üç mərhələ təklif etdilər. Ölkə üzrə 65 yaş və ondan yuxarı yaşda əhali sayının ümumi əhali sayında xüsusi çəkisi:

1) 4% əhali olduğu halda - gənc əhalidir;

2) 4%-dən 7%-ə qədər - əhali strukturu qocalığın astanasındadır;

3) 7%-dən çox - yaşlı əhalidir.

Demoqrafik qocalma prosesinin təsviri üçün aşağıdakı göstəricilərdən istifadə olunur:

1. orta ömür uzunluğunun indeksləri;
2. 60, 70, 80, 90 və 100 ilə qədər yaşama ehtimalı;
3. yaşlı və qoca əhalinin sayının nisbi illik artımı;
4. əmək fəaliyyətinə yararlı və 60 yaşdan yuxarı əhali qrupları sayının arasındakı nisbət - asılılıq əmsalı;
5. 19 yaşa qədər və 60 yaşdan yuxarı əhali sayının arasındakı nisbət - qocalma indeksi.

Əhalinin qocalmasının amillərini nəzərdən keçirərək, demoqrafik qocalmanın birinci səbəbi haqqında alimlərin ümumi fikrini qeyd edək – ümumi əhali sayında uşaqların xüsusi çəkisinin azalmasına və qoca insanların xüsusi çəkisinin artmasına səbəb olan doğumun sayının azalmasıdır (əhalinin təkrar istehsalının azalması tipi).

Demoqrafların və alimlərin əksəriyyətinin fikrincə, əhalinin qocalmasının digər amili orta ömür uzunluğunun artmasıdır. Həyat şəraitinin yaxşılaşması, xəstələnmə strukturunun dəyişməsi və erkən ölüm səbəbləri kimi xarici amillərin rolunun azaldılması tibbin və iqtisadiyyatın uğurlarıdır. Bu isə orta ömür uzunluğunun artmasında mühüm rol oynamışdır. Eyni zamanda, keçid iqtisadiyyatına və əlverişsiz ictimai-iqtisadi və siyasi vəziyyətə malik olan ölkələrdə ömür uzunluğunun azalması diqqəti cəlb edən faktdır.

Gənclərin kənddən azuşaqlı ailə tipi üstünlük təşkil edən şəhərə miqrasiyası yaşlı insanların nisbi sayının artımına təsir göstərir. II Dünya müharibəsində iştirak edən ölkələrin əhalisinin əsasən gənc və orta yaş qruplarının arasında birbaşa və dolayı itkilərini demoqrafik qocalmanın daha bir səbəbi hesab etmək olar. Konkret ölkələrdə və müxtəlif dövrlərdə göstərilən səbəblərin nisbəti və rolu fərqli olmuşdur. Buna görə də, həm tempə görə, həm də təzahür (ifadə) dərəcəsinə görə əhalinin qocalması dünyanın müxtəlif ölkələrində qeyri-bərabərdir. Əsrin başlanğıcında və ortasında əhalinin qocalması Qərbi Avropa ölkələrində, ABŞ və Yaponiyada daha intensiv şəkildə baş vermişdir. Hal-hazırda ən "demoqrafik qoca" ölkələr İtaliya, Yunanıstan, Almaniya, Yaponiya, İsveçdir [3].

Optimist ruhda köklənmiş tədqiqatçılar əhalinin qocalması prosesi ilə əlaqədar ciddi iqtisadi çətinliklər olacağını proqnozlaşdırmırlar.

İspaniyanın Elm və Təhsil Nazirliyi indiyə qədər qiymətləndirilməmiş çiçəklənən və səmərə verən "yeni yaşlıların", "yeni qoca yaşlıların" mövcudluğu haqqında tezis irəli sürmüşdür.

MDB ölkələri arasında Azərbaycan Respublikasının əhali sayına yaxın olan ölkələrdən Belarus Respublikasının demoqrafik göstəricilərinin müqayisəli şəkildə statistik təhlilini aparaq.

Azərbaycan Respublikasının əhalisinin yaş strukturunun xarakteristikasını cədvəl 2-də görə bilərik.

**2011-ci ilin 1 yanvar vəziyyətinə Azərbaycan Respublikasında əhalinin yaşa və cinsə görə bölgüsü**

Cədvəl 2

| | Min nəfərlə | | | Faizlə | | |
|---|---|---|---|---|---|---|
| | Hər iki cins | o cümlədən | | Hər iki cins | o cümlədən | |
| | | kişi | qadın | | kişi | qadın |
| Bütün əhali | 9111,1 | 4517,1 | 4594,0 | 100 | 100 | 100 |
| o cümlədən: 0-4 yaş | 712,5 | 382,4 | 330,1 | 7,8 | 8,5 | 7,2 |
| 5-9 yaş | 626,1 | 334,1 | 292,0 | 6,9 | 7,4 | 6,4 |
| 10-14 yaş | 693,8 | 365,7 | 328,1 | 7,6 | 8,1 | 7,1 |
| 15-19 yaş | 875,6 | 451,8 | 423,8 | 9,6 | 10,0 | 9,2 |
| 20-24 yaş | 946,2 | 470,0 | 476,1 | 10,4 | 10,4 | 10,4 |
| 25-29 yaş | 843,1 | 416,5 | 426,7 | 9,3 | 9,2 | 9,3 |
| 30-34 yaş | 712,8 | 354,9 | 357,9 | 7,8 | 7,9 | 7,8 |
| 35-39 yaş | 618,3 | 300,1 | 318,2 | 6,8 | 6,6 | 6,9 |
| 40-44 yaş | 663,3 | 318,2 | 345,1 | 7,3 | 7,0 | 7,5 |
| 45-49 yaş | 674,1 | 322,3 | 351,8 | 7,4 | 7,1 | 7,7 |
| 50-54 yaş | 600,9 | 290,7 | 310,2 | 6,6 | 6,4 | 6,8 |
| 55-59 yaş | 372,6 | 176,9 | 195,7 | 4,1 | 3,9 | 4,3 |
| 60-64 yaş | 244,2 | 112,7 | 131,6 | 2,7 | 2,5 | 2,9 |
| 65-69 yaş | 120,7 | 53,2 | 67,5 | 1,3 | 1,2 | 1,5 |
| 70 və yuxarı yaşda | 406,9 | 167,6 | 239,2 | 4,5 | 3,7 | 5,2 |
| əmək qabiliyyətli yaşadək əhali | 2032,4 | 1082,2 | 950,2 | 22,3 | 24,0 | 20,7 |
| əmək qabiliyyətli yaşda əhali[1] | 6285,9 | 3167,6 | 3118,3 | 69,0 | 70,1 | 67,9 |
| əmək qabiliyyətli yaşdan yuxarı əhali | 792,8 | 267,3 | 525,5 | 8,7 | 5,9 | 11,4 |
| Ümumi asılılıq əmsalı | - | - | - | 44,4 | - | - |
| Uşaqların asılılıq əmsalı | - | - | - | 32,1 | - | - |
| Yaşlıların asılılıq əmsalı | - | - | - | 12,3 | - | - |
| Qocalma indeksi | - | - | - | 39,7 | - | - |

2011-ci ildə Azərbaycan Respublikasında əhali sayı 9111.1 min nəfər, kişilərin sayı 4517.1 min nəfər, qadınların sayı isə 4594.0 min nəfər olmuşdur. Əmək qabiliyyətli yaşadək oğlanların sayı 1082.2 min nəfər (24.0%), qızların sayı 950.2 min nəfər (20.7%); əmək qabiliyyətli yaşda kişilərin sayı 3167.6 min nəfər (70.1%), qadınların sayı 3118.3 min nəfər (67.9%); əmək qabiliyyətli yaşdan yuxarı kişilərin sayı 267.3 min nəfər (5.9%), qadınların sayı 525.5 min nəfər (11.4%) olmuşdur. Ümumi asılılıq əmsalı - 44.4; uşaqların asılılıq əmsalı - 32.1; yaşlıların asılılıq əmsalı - 12.3; qocalma indeksi 39.7-yə bərabər olmuşdur.

[1] 2011-ci ilin əvvəlinə əmək qabiliyyətli əhali – kişilər 15-61.5 yaş, qadınlar 15–56.5 yaşda

Belarus Respublikasının əhalisinin yaş strukturunun xarakteristikasını isə aşağıdakı cədvəl 3-də görə bilərik.

**2011-ci ilin 1 yanvar vəziyyətinə Belarus Respublikasında əhalinin yaşa və cinsə görə bölgüsü**

Cədvəl 3

| | Min nəfərlə | | | |
|---|---|---|---|---|
| | | o cümlədən | | o mlədən |
| | | kişi | qadın | |
| Bütün əhali | 9481 | 4408 | 5073 | 100 |
| o cümlədən: | | | | |
| 0-4 yaş | 518 | 267 | 251 | 5.5 |
| 5-9 yaş | 440 | 226 | 214 | 4.6 |
| 10-14 yaş | 454 | 233 | 221 | 4.8 |
| 15-19 yaş | 587 | 302 | 285 | 6.2 |
| 20-24 yaş | 763 | 392 | 371 | 8.0 |
| 25-29 yaş | 761 | 366 | 375 | 8.0 |
| 30-34 yaş | 687 | 343 | 344 | 7.2 |
| 35-39 yaş | 664 | 324 | 340 | 7.0 |
| 40-44 yaş | 652 | 314 | 338 | 6.9 |
| 45-49 yaş | 739 | 352 | 387 | 8.1 |
| 50-54 yaş | 771 | 359 | 412 | 8.0 |
| 55-59 yaş | 631 | 280 | 350 | 6.6 |
| 60-64 yaş | 507 | 215 | 292 | 5.3 |
| 65-69 yaş | 305 | 117 | 188 | 3.2 |
| 70 və yuxarı yaşda | 1002 | 298 | 704 | 10.5 |
| əmək qabiliyyətli yaşadək əhalinin sayı | 1513 | 778 | 735 | 16.0 |
| əmək qabiliyyətli yaşda əhalinin sayı | 5804 | 3000 | 2804 | 61.2 |
| əməkqabiliyyətli yaşdan yuxarı əhalinin sayı | 2164 | 630 | 1534 | 22.8 |
| Ümumi asılılıq əmsalı | - | - | - | 63.4 |
| Uşaqların asılılıq əmsalı | - | - | - | 26.1 |
| Yaşlıların yükü | - | - | - | 37.3 |
| Qocalma indeksi | - | - | - | 143 |

*Mənbə: Belarus Respublikasının Milli Statistika Komitəsi.*
*Belarus Respublikasının əhalisi. Minsk, 2011.*

2011-ci ildə Belarus Respublikasında əhali sayı 9481.0 min nəfər, kişilərin sayı 4408 min nəfər, qadınların sayı isə 5073 min nəfər olmuşdur. Əmək qabiliyyətli yaşadək oğlanların sayı 778 min nəfər (17.6%), qızların sayı 735 min nəfər (14.5%); əmək qabiliyyətli yaşda kişilərin sayı 3000 min nəfər (68.3%), qadınların sayı 2804 min nəfər (55.7%); əmək qabiliyyətli yaşdan yuxarı kişilərin sayı 630 min nəfər (14.1%), qadınların sayı 1534 min nəfər (29.8%) olmuşdur. Ümumi asılılıq əmsalı 63.4; uşaqların asılılıq əmsalı 26.1; yaşlıların asılılıq əmsalı 37.3; qocalma indeksi 143-ə bərabər olmuşdur.

2011-ci ildə Azərbaycan Respublikası və Belarus Respublikası üzrə demoqrafik göstəriciləri statistik təhlil edərək aşağıdakı qənaətə gəlmək olar:

1. uşaqların asılılıq əmsalı Azərbaycan Respublikasında Belarus Respublikasından 1.2

dəfə çox;

2. ümumi asılılıq əmsalı Belarusda Azərbaycan Respublikasından 1.4 dəfə çox;
3. yaşlıların asılılıq əmsalı Belarusda Azərbaycan Respublikasından 3.0 dəfə çox;
4. qocalma indeksi Belarusda Azərbaycan Respublikasından 3.6 dəfə çox olmuşdur.

Əhalinin cins və yaş strukturunu kompleks təhlil etmək və aydın təsvir etmək üçün cins-yaş piramidası qurulur. Yaş piramidaları həm birillik, həmçinin beşillik yaş qrupları üzrə qurula bilər. Əlbəttə birillik yaşlara üstünlük verilir, çünki o zaman alınan piramida daha ifadəli və daha geniş məlumatlı olur.

Ölüm hallarının məntiqi nəticəsi olaraq yuxarı yaşdakıların sayı da kiçik yaşdakılara nisbətən az olur, o zaman məlumatların qrafiki təsviri piramida formasına malik olur. Lakin doğum sayının azalmaları şəraitində demoqrafik göstəricilərini səviyyələrinin güclü tərəddüdləri, yaş-cins piramidasının ən müxtəlif formaları əldə edilə bilər.

Onun formasının doğum sayının, ölüm və miqrasiya proseslərinin yaş tərkibinə necə təsir etməsini və beləliklə, müxtəlif tarixi hadisələrin demoqrafik inkişafa güclü təsir göstərməsini anlamağa imkan yaradır.

Bundan başqa, yaş-cins piramidası əhalinin artmasının dəyişikliyinin perspektivləri haqqında təsəvvür verir.

Yaş-cins piramidasının oturacağının daralması yalnız doğum sayının azalmasını deyil, həmçinin valideynlərin nəsillərinin uşaqların nəsilləri ilə əvəz edilməyəcəyini göstərir, yəni ölkə əhalisinin sayının qarşıdakı illərdə azalacağından xəbər verir.

Piramidanın sağ tərəfinin böyük sahəsi, onun sol hissəsi ilə müqayisədə, kişilərin yüksək ölüm faizinə görə əhali sayında qadınların üstünlük təşkil etdiyini vurğulayır.




**Şəkil 2. 2016-cı ildə Azərbaycan Respublikası əhalisinin cins-yaş piramidası ,** *nəfərlə*

Yaş piramidasında deformasiyalar "demoqrafik dalğa" və ya "demoqrafik əks-səda" adı almış hadisəni əks etdirir. Bu anlayışlarla uzun müddət boyunca ayrı yaş qruplarının sayının dalğavari dəyişiklikləri ifadə edilir. Demoqrafik dalğanın yaranmasının səbəbləri doğum səviyyəsinin kəskin dəyişikliyi (azalması və ya artması), ölüm səviyyəsinin kəskin artması və müəyyən edilmiş tarixi dövr üçün miqrant axınının (ölkəyə gələnlərin və ölkədən gedənlərin sayının) güclənməsindən ibarət olur.

**2013-2030-cu illərdə Azərbaycan Respublikası əhalisinin dörd yaş qrupu üzrə tərkibi, faizlə**

Cədvəl 4

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 | 2025 | 2026 | 2027 | 2028 | 2029 | 2030 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 0-4 | 8,7 | 8,7 | 8,7 | 8,8 | 8,8 | 8,8 | 8,6 | 8,3 | 8,0 | 7,8 | 7,5 | 7,3 | 7,1 | 6,9 | 6,7 | 6,4 | 6,4 | 6,3 |
| 20-24 | 10,0 | 9,6 | 9,2 | 8,8 | 8,4 | 8,0 | 7,6 | 7,2 | 6,9 | 6,5 | 6,2 | 6,0 | 5,9 | 5,8 | 5,7 | 5,6 | 5,9 | 6,2 |
| 40-44 | 6,9 | 6,8 | 6,6 | 6,5 | 6,4 | 6,3 | 6,5 | 6,7 | 6,8 | 7,0 | 7,2 | 7,4 | 7,6 | 7,7 | 7,9 | 8,1 | 8,1 | 8,1 |
| 60-64 | 3,1 | 3,3 | 3,6 | 3,8 | 4,0 | 4,3 | 4,6 | 4,9 | 5,2 | 5,5 | 5,8 | 5,8 | 5,7 | 5,7 | 5,6 | 5,6 | 5,5 | 5,5 |

2016-cı ildə aparılmış 2050-ci ilədək Azərbaycan Respublikası əhalisinin gözlənilən sayı haqqında proqnoz məlumatlara əsaslanaraq, 0-4, 20-24, 40-44, 60-64 yaş qruplarında əhali sayının faizlə ifadəsi hesablanmış və cədvəl 4 tərtib edilmişdir. Cədvəl 4-dən istifadə edərək şəkil 3 qrafiki alınmışdır. Şəkil 3-dən göründüyü kimi 2013-2030-cu illərdə Azərbaycan Respublikasında əhalinin 0-4, 20-24, 40-44, 60-64 yaş qruplarında (faizlə) güclü "dalğalar" proqnozlaşdırılır. Belə ki, 0-4, 20-24 yaş qruplarında əhali sayı azalma, 40-44, 60-64 yaş qruplarında isə artım qeydə alınır. Dövlətin ictimai-iqtisadi inkişafının strategiyasının hazırlanması vaxtı bu vəziyyətin nəzərə alınması mütləqdir.




Şəkil 3. 2013-2030-cu illərdə Azərbaycan Respublikası əhalisinin dörd yaş qrupu üzrə gözlənilən tərkibi, *faizlə*

Əhalinin yaş strukturunun təkamülündə əsas istiqamət demoqrafik qocalma göstəricisidir. Demoqrafik qocalma və ya əhalinin qocalması dedikdə, əhalinin ümumi sayında yaşlı əhalinin xüsusi çəkisinin artımı başa düşülür.

1960-cı illərdə 60 yaş qocalığın başlanğıcı yaşı hesab edilirdi. Hazırda ömür uzunluğunun və pensiyaya çıxma yaşının artmasına görə bu sərhəd 65 yaşa sürüşdürülmüşdür.

Qocalma göstəricilərinin arasında yaş kontingentlərinin nisbətinə əsaslanan növbəti göstəricilər hesablanır:

• ümumi əhali sayında yaşlı əhalinin xüsusi çəkisi (60 yaş və ya 65 və ondan yuxarı yaş) və ən yaşlıların xüsusi çəkisi (80 yaş və ya 85 yaş və daha yuxarı yaşlarda). Belarus Respublikasında yaşlılara 60 yaşda və ondan daha yuxarı yaşda olan əhali daxil edilir; Azərbaycan Respublikasında isə bu rəqəm 65 yaş və daha yuxarı yaşlar hesab olunur.

• yaşlı kontingentin qocalığını ölçən qocalığın dərinlik indeksi və ya nisbəti, yəni yaşlılar arasında

ən yaşlıların xüsusi çəkisi;
• qocalma indeksi: 15 yaşadək uşaqların sayına yaşlıların sayının nisbətidir; 2011-ci ildə Belarus Respublikası üzrə qocalma indeksi 143.0 olmuşdur, Azərbaycan Respublikası üzrə isə bu göstərici 39.7-yə bərabər olmuşdur. Bu rəqəm bizim ölkəmizdə 2016-cı il 1 yanvar vəziyyətinə 25.8-ə bərabər olmuşdur.
• yaşlıların demoqrafik asılılıq əmsalı: pensiya yaşdakı əhali sayının əmək qabiliyyətli yaşdakı əhali sayına nisbəti kimidir. 2011-ci ildə Belarus Respublikası üzrə yaşlıların asılılıq əmsalı 37.3 olmuşdur, Azərbaycan Respublikası üzrə isə bu göstərici 12.6-ya bərabər olmuşdur. Bu rəqəm 2016-cı il 1 yanvar vəziyyətində də 12.6-ya bərabər olmuşdur.

Demoqrafik qocalmanın göstəricilərinin ikinci tipinə əhalinin orta və median yaşı aiddir.

Əhalinin orta yaşı adam-illərin (yaşın həmin yaşdakı əhali sayına hasillərinin cəmindən ibarətdir) ümumi sayının əhali sayının ümumi sayına bölünməsi yolu ilə təyin edilir. Əhalinin median yaşı –əhali sayını iki bərabər hissəyə ayırır. Median yaş orta yaş göstəricisindən insanların yaş qruplarına görə qeyri-bərabər paylanmasının təsirinə daha az meyillidir.

Belə ki, bir hissə – median yaşdan kiçik, digəri isə ondan yaşca böyüklərdən ibarət olur.

1950-2050-ci illərdə əhalinin yaş strukturlarında dəyişikliklərin təhlilinə həsr edilmiş BMT-nin məruzəsində qeyd edilir ki, yaşadığımız əsr əhalinin qocalmasına görə daha çox sürətli qocalmaya şahid olacaq və bu, hər bir insanın həyatına aid olan qlobal fenomendir. Əhalinin yaş strukturlarının transformasiyası ilə bağlı əsas problem, qocalmanın nəticələrinin çoxtərəfli olmasıdır, belə ki, müasir cəmiyyətin sosial institutları gənc əhali zamanında yaranmışdır.

**İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə qocalıq indikatorları**
**Cədvəl 5**

| | İnkişaf etməkdə olan ölkələr | | | İnkişaf etmiş ölkələr | | |
|---|---|---|---|---|---|---|
| İllər | 1950 | 1980 | 2010 | 1950 | 1980 | 2010 |
| 65 –dən yuxarı yaşdakı əhalinin xüsusi çəkisi (%) | 3,9 | 4,1 | 5,8 | 7,9 | 11,7 | 15,9 |
| Qocalığın dərinlik indeksləri(%) | 9,3 | 11,5 | 16,0 | 13,2 | 17,1 | 23,8 |
| Qocalma indeksi(hər 100 nəfərə) | 10,3 | 10,5 | 20,0 | 28,9 | 52,0 | 63,0 |
| Himayəetmə indeksi (hər 100 nəfərə) | 7 | 7 | 9 | 12 | 18 | 24 |
| Median yaş (il) | 21,5 | 20,5 | 26,9 | 29 | 32 | 39,7 |

Mənbə: United Nations, Population Division World Population Prospects:
The 2010 Revision. http://esa.un.org/unpd/wpp/index.htm

Əhalinin qocalması prosesi bəşəriyyətin tarixində yeni bir fenomendir, belə ki, bu demoqrafik müasirləşmə və ya keçidin gedişatında yaş tərkibinin təkamülünü əks etdirir. Demoqrafik keçidin birinci mərhələsində hər şeydən əvvəl, uşaq ölümü faizinin sürətli azalmasına görə ümumi əhali sayında uşaqların xüsusi çəkisi artır.

Beləliklə, məsələn, inkişaf edən ölkələrin əhalisinin median yaşının azalmasında əhalinin cavanlaşması görünür (cədvəl 5). Lakin sonra doğum sayının azalmasına görə "aşağıdan" qocalma prosesi başlanır. Yuxarı yaşlarda ölüm faizinin azalması zamanı "yuxarıdan" qocalma prosesi başlanır. Qocalma dərinliyi indeksinin artması onun indikatorudur, bu da inkişaf etmiş ölkələrdə aydın izlənir.